# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli 234-VI FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğv edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli 234-VI FR nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

1.1. “Naxçıvan Muxtar Respublikası daxilində şəhər və rayonlararası magistral rabitə kanallarından səmərəli istifadənin tənzimlənməsi” haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 50 nömrəli Qərarı;

1.2. “Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 27 yanvar tarixli 12 nömrəli Qərarı;

1.3. “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə”nin və “Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 mart tarixli 13 nömrəli Qərarı;

1.4. “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin kollegiyasının üzvlərinin sayı və tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 5 sentyabr tarixli 150 nömrəli Qərarı;

1.5. “Avtomobil nəqliyyatı ilə sərnişin daşınması” fəaliyyət növü üçün lisenziyanın müddətinin və ödəniş məbləğinin müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 oktyabr tarixli 179 nömrəli Qərarı;

1.6. “Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı”nın və “Poçt göndərişlərinin saxlanması, açılması, satışı və məhv edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli 56 nömrəli Qərarı;

1.7. “Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsin işçilərinin maddi təminatı və sosial müdafiəsinin gücləndirilməsinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 yanvar tarixli 12 nömrəli Qərarı;

1.8. “Naxçıvan Muxtar Respublikasında taksi minik avtomobilləri ilə sərnişindaşıma xidmətlərinin tarifləri”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 mart tarixli 74 nömrəli Qərarı.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “14” noyabr 2024-cü il

№ 64